## “Birləşmiş Millətlər Təşkilatının malların beynəlxalq alğı-satqısına dair müqavilələr haqqında Konvensiyası”na qoşulmaq barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 1980-ci il aprelin 11-də Vyana şəhərində imzalanmış “Birləşmiş Millətlər Təşkilatının malların beynəlxalq alğı-satqısına dair müqavilələr haqqında Konvensiyası”na müvafiq bəyanatla qoşulsun.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 fevral 2016-cı il
№ 116-VQ

**Birləşmiş Millətlər Təşkilatının**

# malların beynəlxalq alğı-satqısına dair müqavilələr haqqında

**KONVENSİYASI**

## PREAMBULA

Bu Konvensiyaya Tərəf olan Dövlətlər,

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının altıncı xüsusi sessiyasının qəbul etdiyi Yeni Beynəlxalq İqtisadi Qaydanın yaradılması haqqında qətnamələrdəki geniş məqsədləri nəzərə alaraq,

beynəlxalq ticarətin bərabərlik və qarşılıqlı fayda əsasında inkişafının dövlətlər arasında dostluq münasibətlərinin təşviqində vacib element olduğunu hesab edərək,

malların beynəlxalq alğı-satqısı üzrə müqavilələri tənzimləyən və müxtəlif sosial, iqtisadi və hüquqi sistemləri nəzərə alan vahid normaların qəbul edilməsinin beynəlxalq ticarətdə hüquqi maneələrin aradan qaldırılmasına töhfə verdiyi və beynəlxalq ticarətin inkişafını təşviq etdiyi qənaətində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər.

## I hissə
## TƏTBİQ SAHƏSİ VƏ ÜMUMİ MÜDDƏALAR

*1-ci fəsil*

TƏTBİQ SAHƏSİ

### Maddə 1

(1) Bu Konvensiya fəaliyyət yerləri müxtəlif Dövlətlərdə yerləşən tərəflər arasında malların alğı-satqı müqavilələrinə aşağıdakı hallarda tətbiq olunur:

(a) bu Dövlətlər Razılığa gələn Dövlətlər olduqda; və ya

(b) beynəlxalq xüsusi hüququn normaları Razılığa gələn Dövlətin hüququnun tətbiqinə gətirib çıxardıqda.

(2) Tərəflərin fəaliyyət yerlərinin müxtəlif dövlətlərdə yerləşməsi faktı tərəflər arasındakı müqavilədən və ya müqavilənin bağlanılması anından əvvəl və yaxud bağlanılması anında baş vermiş işgüzar münasibətlərdən və ya tərəflərin açıqladığı məlumatdan irəli gəlmirsə, bu fakt nəzərə alınmır.

(3) Bu Konvensiyanın tətbiqini müəyyən edərkən nə tərəflərin milli mənsubiyyəti, nə də tərəflərin və ya müqavilənin mülki və ya kommersiya xarakteri nəzərə alınır.

**Maddə 2**

Bu Konvensiya aşağıdakılara tətbiq olunmur:

(a) şəxsi, ailə və məişətdə istifadə üçün satın alınan malların satışına, satıcının müqavilənin bağlanılmasından əvvəl istənilən vaxt və ya müqavilənin bağlanıldığı an malların belə məqsədlərdən hər hansı biri üçün satın alındığını bilmədiyi və ya bilməli olmadığı hallar istisna olmaqla;

(b) hərrac vasitəsilə satışa;

(c) icra qaydasında və ya qanunun tələbinə əsasən digər qaydada satışa;

(d) səhmlərin, payların, investisiya qiymətli kağızlarının, ödəniş qiymətli kağızlarının və ya pulun satışına;

(e) su və hava nəqliyyatı gəmilərinin, habelə hava yastıqlı gəmilərin satışına;

(f) elektrik enerjisinin satışına.

**Maddə 3**

(1) Malları sifariş edən tərəf malların hazırlanması və ya istehsal edilməsi üçün zəruri olan materialların əhəmiyyətli hissəsinin göndərilməsi öhdəliyini öz üzərinə götürmədiyi halda, hazırlanmalı və ya istehsal olunmalı malların göndərilməsinə dair müqavilələr alğı-satqı müqavilələri hesab olunur.

(2) Bu Konvensiya malları təchiz edən tərəfin öhdəliklərinin üstünlük təşkil edən hissəsinin işlərin görülməsi və ya digər xidmətlərin göstərilməsindən ibarət olduğu müqavilələrə tətbiq olunmur.

**Maddə 4**

Bu Konvensiya yalnız alğı-satqı müqaviləsinin bağlanılmasını və alıcı və satıcının belə müqavilədən yaranan hüquq və öhdəliklərini tənzimləyir. Xüsusilə, bu Konvensiyada digər qayda birbaşa olaraq nəzərdə tutulmadıqda, o, aşağıdakılara tətbiq edilmir:

(a) müqavilənin və ya onun müddəalarından hər hansı birinin və ya hər hansı adətin etibarlılığına;

(b) satılan mallar üzərində mülkiyyət hüququna müqavilənin göstərə biləcəyi təsirlərə.

**Maddə 5**

Bu Konvensiya malların səbəb olduğu hər hansı şəxsin ölümünə və ya sağlamlığına vurulan zərərə görə satıcının məsuliyyətinə tətbiq olunmur.

**Maddə 6**

Tərəflər bu Konvensiyanın tətbiqini istisna edə və ya 12-ci maddəyə riayət olunması şərti ilə onun istənilən müddəasından imtina edə və ya onun istənilən müddəasının qüvvəsini dəyişdirə bilərlər.

*2-ci fəsil*

ÜMUMİ MÜDDƏALAR

**Maddə 7**

(1) Bu Konvensiyanın şərh edilməsi zamanı onun beynəlxalq xarakteri və onun tətbiqində vahidliyin əldə olunmasına və beynəlxalq ticarətdə vicdanlılığa riayət olunmasına dəstək verilməsinin zəruriliyi nəzərə alınmalıdır.

(2) Bu Konvensiyanın tənzimetmə predmetinə aid olan, lakin onda birbaşa olaraq həllini tapmayan məsələlər onun əsaslandığı ümumi prinsiplərə, belə ümumi prinsiplər olmadığı təqdirdə isə, beynəlxalq xüsusi hüququn normalarına əsasən tətbiq edilməli olan hüquqa uyğun olaraq həll olunmalıdır.

**Maddə 8**

(1) Bu Konvensiyanın məqsədləri üçün tərəflərdən birinin bəyanatları və digər davranışı həmin tərəfin niyyətinə uyğun olaraq şərh olunur, bir şərtlə ki, digər tərəf bu niyyətin nə olduğunu bilirdi və ya bilməyə bilməzdi.

(2) Əvvəlki bənd tətbiq edilə bilmədikdə, tərəflərdən birinin bəyanatları və digər davranışı eyni vəziyyətdə eyni növ digər tərəf qismində çıxış edən ağlabatan şəxsin anlamasına uyğun olaraq şərh olunur.

(3) Tərəfin niyyətinin və ya hər hansı ağlabatan şəxsin malik ola biləcəyi anlamanın müəyyən edilməsi zamanı danışıqlar, tərəflərin qarşılıqlı münasibətlərində müəyyən etdikləri istənilən təcrübə, adətlər və tərəflərin istənilən sonrakı hərəkəti də daxil olmaqla, bütün müvafiq hallara lazımi diqqət yetirilməlidir.

**Maddə 9**

(1) Tərəflərin barəsində razılığa gəldikləri istənilən adət və qarşılıqlı münasibətlərində müəyyən etdikləri istənilən təcrübə onlar üçün məcburi xarakter daşıyır.

(2) Tərəflərin, aralarında digər qaydada razılaşma olmadıqda, bildikləri və ya bilməli olduqları və beynəlxalq ticarətdə müvafiq ticarət sahəsində eyni növlü müqavilələrin tərəflərinə geniş məlum olan və onların müntəzəm riayət etdikləri adətin tərəflərin müqavilələrinə və ya onun bağlanmasına tətbiqini nəzərdə tutduqları hesab edilir.

**Maddə 10**

Bu Konvensiyanın məqsədləri üçün:

(a) tərəf birdən çox fəaliyyət yerinə malik olduqda, müqavilənin bağlanılmasınadək istənilən vaxt və ya müqavilənin bağlanılması anında tərəflərə məlum olan və ya onların ehtimal etdikləri hallar nəzərə alınmaqla müqavilə və onun icrası ilə daha sıx əlaqəyə malik olan fəaliyyət yeri tərəfin fəaliyyət yeri hesab olunur;

(b) tərəf fəaliyyət yerinə malik olmadıqda, onun daimi yaşayış yeri əsas götürülür.

**Maddə 11**

Alğı-satqı müqaviləsinin yazılı formada bağlanılması və ya təsdiq olunması və ya forma ilə bağlı hər hansı digər tələbə tabe tutulması tələb olunmur. O, şahid ifadələri də daxil olmaqla, istənilən vasitələrlə sübut oluna bilər.

**Maddə 12**

Tərəflərdən hər hansı biri bu Konvensiyanın 96-cı maddəsi əsasında bəyanat verən Razılığa gələn Dövlətdə fəaliyyət yerinə malik olduqda, alğı-satqı müqaviləsinin, tərəflərin razılığı ilə onun dəyişdirilməsi və ya ləğv edilməsinin, hər hansı ofertanın, akseptin və ya niyyətin digər ifadəsinin yazılı deyil, istənilən formada həyata keçirilməsinə yol verən bu Konvensiyanın 11-ci maddəsinin, 29-cu maddəsinin və ya II hissəsinin hər hansı müddəası tətbiq olunmur. Tərəflər bu maddədən geri çəkilə və ya onun qüvvəsini dəyişdirə bilməzlər.

**Maddə 13**

Bu Konvensiyanın məqsədləri üçün "yazılı forma" dedikdə, teleqram və tekekslə məlumatların ötürülməsi də başa düşülür.

## II hissə
## MÜQAVİLƏNİN BAĞLANILMASI

**Maddə 14**

(1) Bir və ya bir neçə konkret şəxsə ünvanlanmış müqavilənin bağlanılması barədə təklif kifayət qədər aydın olduqda və aksept halında oferentin özünü bağlı hesab etməsi niyyətini ifadə etdikdə oferta hesab olunur. Təklifdə mallar göstərildikdə, birbaşa və ya dolayı yolla miqdar və qiymət təyin olunduqda və ya miqdar və qiymətin müəyyənləşdirilməsi qaydaları nəzərdə tutulduqda, təklif kifayət qədər aydın hesab olunur.

(2) Bir və ya bir neçə konkret şəxsə ünvanlanmayan təklif, belə təklifi etmiş şəxs tərəfindən əksi birbaşa qeyd olunmayıbsa, yalnız oferta etməyə dəvət hesab olunur.

**Maddə 15**

(1) Oferta onun ünvanlandığı şəxs tərəfindən ofertanın alındığı andan qüvvəyə minir.

(2) Ofertanın geri götürülməsinə dair bildiriş ofertadan əvvəl və ya onunla eyni vaxtda ofertanın ünvanlandığı şəxsə çatdığı halda, oferta, hətta geri götürülə bilməyən olduğu təqdirdə belə, oferent tərəfindən geri götürülə bilər.

**Maddə 16**

(1) Müqavilə bağlanana qədər, ofertanın geri götürülməsinə dair bildiriş ofertanın ünvanlandığı şəxs tərəfindən akseptin göndərilməsindən əvvəl alındığı halda, oferta oferent tərəfindən geri götürülə bilər.

(2) Bununla belə, oferta aşağıdakı hallarda geri götürülə bilməz:

a) ofertada aksept üçün dəqiq müddət müəyyənləşdirilməsi yolu ilə və ya digər qaydada onun geri götürülə bilməyən olması qeyd olunduqda; və ya

b) ofertanın ünvanlandığı şəxsin ofertanı geri götürülə bilməyən hesab etməsi ağlabatan olduqda və ofertanın ünvanlandığı şəxs ofertaya uyğun şəkildə hərəkət etdikdə.

**Maddə 17**

Oferta, hətta geri götürülə bilməyən olduqda belə, ofertadan imtina olunması barədə bildirişin oferent tərəfindən alınması ilə qüvvədən düşür.

**Maddə 18**

(1) Ofertanın ünvanlandığı şəxsin oferta ilə razı olmasını ifadə edən bəyanatı və ya digər davranışı aksept hesab olunur. Susmaq və ya hərəkətsizlik, özü-özlüyündə aksept hesab olunmur.

(2) Ofertanın aksepti razılıq ifadəsinin oferent tərəfindən alındığı andan qüvvəyə minir. Razılıq ifadəsinin oferentin müəyyən etdiyi müddətdə, müddət müəyyən olunmadıqda isə əqdin halları, o cümlədən oferent tərəfindən istifadə olunan əlaqə vasitələrinin sürəti nəzərə alınmaqla, ağlabatan müddətdə oferent tərəfindən alınmadıqda, aksept qüvvəyə minmiş hesab olunmur. Şərait başqa cür göstərmədikdə, şifahi oferta dərhal aksept edilməlidir.

(3) Bununla belə, ofertaya görə və ya tərəflərin qarşılıqlı münasibətlərində müəyyən etdikləri təcrübə və ya adət nəticəsində ofertanın ünvanlandığı şəxs, oferenti məlumatlandırmadan, razılığını hər hansı hərəkəti, xüsusilə malların göndərilməsinə və ya qiymətin ödənilməsinə aid olan hərəkəti həyata keçirməklə ifadə edə bilərsə, aksept belə hərəkətin həyata keçirilməsi anından qüvvəyə minir, bir şərtlə ki, bu hərəkət əvvəlki bənddə qeyd edilən müddət ərzində həyata keçirilmiş olsun.

**Maddə 19**

(1) Ofertaya aksept olmaq məqsədi daşıyan, lakin əlavələri, məhdudiyyətləri və ya digər dəyişiklikləri əhatə edən cavab ofertadan imtina hesab olunur və əks ofertanı ifadə edir.

(2) Bununla belə, ofertaya aksept olmaq məqsədi daşıyan, lakin ofertanın şərtlərini əhəmiyyətli dərəcədə dəyişməyən əlavə və ya fərqli şərtləri əhatə edən cavab aksept hesab olunur, bir şərtlə ki, oferent əsaslandırılmamış ləngimə olmadan belə fərqliliklərə şifahi olaraq etiraz etməsin və ya bu barədə bildiriş göndərməsin. Əgər o bunu etmirsə, akseptdə əksini tapmış dəyişikliklərlə birlikdə ofertanın şərtləri müqavilənin şərtləri hesab olunur.

(3) Digərləri ilə yanaşı, qiymətə, ödəməyə, malların keyfiyyəti və miqdarına, göndərmənin yerinə və müddətinə, bir tərəfin digəri qarşısında məsuliyyətinin həcminə və ya mübahisələrin həllinə dair əlavə və ya fərqli şərtlər ofertanın şərtlərinin əhəmiyyətli dərəcədə dəyişdirilməsi hesab edilir.

**Maddə 20**

(1) Oferent tərəfindən teleqram və ya məktubda aksept üçün müəyyənləşdirilmiş müddətin axımı teleqramın göndərilmək üçün verildiyi andan və ya məktubda göstərilən tarixdən və ya belə tarix göstərilmədikdə isə zərfin üzərində qeyd olunan tarixdən başlayır. Oferent tərəfindən telefon, teleks və ya digər ani rabitə vasitələri ilə aksept üçün müəyyən olunmuş müddətin axımı ofertanın onun ünvanlandığı şəxs tərəfindən alınması anından başlayır.

(2) Aksept üçün müəyyən edilmiş müddətin axımına düşən dövlət bayramları və ya qeyri-iş günləri bu müddətin hesablanması zamanı istisna olunmur. Bununla belə, aksept barədə bildiriş oferentin ünvanına qeyd olunan müddətin sonuncu günündə, həmin günün oferentin fəaliyyət yerində dövlət bayramı və ya qeyri-iş gününə düşməsi səbəbindən çatdırıla bilmirsə, müddət növbəti birinci iş gününədək uzadılır.

**Maddə 21**

(1) Gecikmiş aksept buna baxmayaraq, aksept kimi qüvvəsini saxlayır, bir şərtlə ki, oferent ləngimədən ofertanın ünvanlandığı şəxsə bununla bağlı şifahi məlumat vermiş olsun və ya ona müvafiq bildiriş göndərmiş olsun.

(2) Gecikmiş aksepti ifadə edən məktub və ya digər yazılı məlumatdan onun ötürülməsi normal qaydada olsaydı, onun vaxtında alınacağı şərtlərlə göndərildiyi görünsə, gecikmiş aksept aksept kimi qüvvəsini saxlayır, bir şərtlə ki, oferent ləngimədən ofertanın

ünvanlandığı şəxsə öz ofertasını qüvvədən düşmüş hesab etməsini şifahi qaydada bildirməsin və ya ona bununla bağlı bildiriş göndərməsin.

**Maddə 22**

Aksept onun geri götürülməsi barədə bildiriş oferent tərəfindən akseptin qüvvəyə minməli olduğu andan əvvəl və ya həmin anda alınarsa, geri götürülə bilər.

**Maddə 23**

Ofertanın aksepti bu Konvensiyanın müddəalarına uyğun olaraq qüvvəyə mindiyi anda müqavilə bağlanılmış hesab olunur.

**Maddə 24**

Konvensiyanın bu hissəsinin məqsədləri üçün oferta, aksept barədə bildiriş və ya niyyətin istənilən digər ifadəsi onlar ünvanlandıqları şəxsə şifahi formada bildirildikdə və ya istənilən vasitə ilə ona şəxsən, onun fəaliyyət yerinə və ya onun poçt ünvanına, onun fəaliyyət yeri və ya poçt ünvanı olmadıqda isə, onun daimi yaşayış yerinə çatdırıldıqda ünvanlandığı şəxs tərəfindən "alınmış" hesab olunur.

## III hissə
## MALLARIN ALĞI-SATQISI

*1-ci fəsil*

### ÜMUMİ MÜDDƏALAR

**Maddə 25**

Müqaviləni pozan tərəfin əvvəlcədən görə bilmədiyi və eyni şəraitdə eyni növ ağlabatan şəxsin əvvəlcədən görə bilməyəcəyi hallar istisna olmaqla, tərəflərdən birinin müqaviləni pozması o halda əhəmiyyətli pozuntu hesab olunur ki, belə pozuntu digər şəxs üçün onun müqavilədən irəli gələn gözləntilərə olan hüququndan əhəmiyyətli dərəcədə məhrum olması kimi zərərlə nəticələnir.

**Maddə 26**

Müqaviləyə xitam verilməsi haqqında bəyanat yalnız digər tərəfə bildiriş vasitəsilə bildirildikdə qüvvəyə malik olur.

**Maddə 27**

Hazırkı Konvensiyanın bu Hissəsində digər qayda birbaşa olaraq nəzərdə tutulmayıbsa, tərəf bildiriş, sorğu və ya digər məlumatı bu Hissəyə uyğun olaraq və mövcud şərait daxilində lazımi vasitələrlə veribsə və ya edibsə, məlumatın ötürülməsində ləngimə və ya səhv və ya onun təyinatı üzrə çatdırılmaması həmin tərəfi öz məlumatına istinad etmək hüququndan məhrum etmir.

**Maddə 28**

Bu Konvensiyanın müddəalarına uyğun olaraq tərəflərdən biri digər tərəfdən hər hansı öhdəliyin icra edilməsini tələb etmək hüququna malik olarsa, məhkəmə naturada icra barədə qərar çıxarmağa, onun öz qanununa əsasən bu Konvensiya ilə tənzimlənməyən oxşar alğı-satqı müqavilələrinə münasibətdə belə etdiyi hallar istisna olmaqla, borclu deyildir.

**Maddə 29**

(1) Müqavilə tərəflərin adi razılaşması ilə dəyişdirilə və ya ona xitam verilə bilər.

(2) Müqaviləyə tərəflərin razılığı ilə istənilən dəyişikliklər edilməsinin və ya ona xitam verilməsinin yazılı formada edilməsi müddəasını nəzərdə tutan yazılı müqavilə tərəflərin razılığı ilə digər qaydada dəyişdirilə və ya ona xitam verilə bilməz. Bununla belə, tərəfin davranışı onun üçün qeyd olunan müddəaya əsaslanmaq imkanını digər tərəfin belə davranışa etibar etdiyi dərəcədə istisna edə bilər.

*2-ci fəsil*

SATICININ ÖHDƏLİKLƏRİ

**Maddə 30**

Satıcı müqavilə və bu Konvensiyanın tələblərinə uyğun olaraq malları göndərməli, ona aid olan sənədləri təqdim etməli və mallar üzərində mülkiyyət hüququnu ötürməlidir.

**I Bölmə**

**MALLARIN GÖNDƏRİLMƏSİ VƏ SƏNƏDLƏRİN VERİLMƏSİ**

**Maddə 31**

Satıcı malları hər hansı digər müəyyən yerə göndərməli deyilsə, onun göndərmə ilə bağlı öhdəliyi aşağıdakılardan ibarətdir:

(a) alğı-satqı müqaviləsi malların daşınmasını nəzərdə tutursa - malların alıcıya verilməsi məqsədi ilə birinci daşıyıcıya təhvil verilməsi;

(b) əvvəlki yarımbəndin tətbiq dairəsinə düşməyən hallarda, müqavilə spesifik mallara və ya müəyyən bir ehtiyatdan götürülməli və ya hazırlanmalı və ya istehsal olunmalı olan fərdiləşdirilməmiş mallara aiddirsə və tərəflər müqavilənin bağlanılması anında malların müəyyən yerdə olduğunu və ya müəyyən yerdə hazırlanmalı və ya istehsal edilməli olduğunu bilirdilərsə - malların həmin yerdə alıcının sərəncamına verilməsi;

(c) digər hallarda - müqavilənin bağlanılması anında satıcının fəaliyyət yeri olan yerdə malların alıcının sərəncamına verilməsi.

**Maddə 32**

(1) Satıcı müqaviləyə və ya bu Konvensiyaya uyğun olaraq malları daşıyıcıya təhvil verirsə və mallar markalanma, yükləmə sənədləri vasitəsilə və ya digər qaydada müqavilənin məqsədləri üçün dəqiq fərdiləşdirilməyibsə, satıcı malları dəqiqləşdirməklə alıcıya göndəriş haqqında bildiriş verməlidir.

(2) Satıcı malların daşınmasını təmin etməlidirsə, o malların təyinat yerinə mövcud şərtlər daxilində lazımi daşınma üsulları ilə daşınması üçün zəruri olan və belə daşınma üçün adi olan şərtlərlə müqavilələr bağlanılmalıdır.

(3) Satıcı malların daşınması ilə bağlı onu sığortalamalı deyildirsə, o, alıcının xahişi ilə alıcı tərəfindən belə sığortalamanın həyata keçirilməsi üçün zəruri olan bütün malik olduğu məlumatları ona təqdim etməlidir.

**Maddə 33**

Satıcı malları aşağıdakı tarixlərdən birində göndərməlidir:

(a) müqavilə tarixi müəyyən edirsə və ya müəyyən etməyə imkan verirsə - həmin tarixdə;

(b) müqavilə vaxt müddətini müəyyən edirsə və ya müəyyən etməyə imkan verirsə - şərait göndərmə tarixinin alıcı tərəfindən təyin edilməli olduğunu göstərmirsə, həmin müddət çərçivəsində istənilən an;

(c) istənilən digər halda - müqavilənin bağlanılmasından sonra müəyyən müddətdə.

**Maddə 34**

Satıcı mallara aid olan sənədləri təhvil verməlidirsə, o, müqavilə ilə tələb olunan vaxtda, yerdə və formada onları təhvil verməlidir. Satıcı sənədləri alıcıya qeyd olunan vaxtdan əvvəl təhvil vermişdirsə, o, həmin vaxtadək sənədlərdəki istənilən uyğunsuzluqları aradan qaldıra bilər, bir şərtlə ki, bu hüququn həyata keçirilməsi alıcıya ağlabatan olmayan narahatçılıq və ya ağlabatan olmayan xərclər yaratmasın. Bununla belə, alıcı bu Konvensiyaya uyğun olaraq dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququnu özündə saxlayır.

## II bölmə
## MALLARIN UYĞUNLUĞU VƏ ÜÇÜNCÜ ŞƏXSLƏRİN TƏLƏBLƏRİ

**Maddə 35**

(1) Satıcı miqdarına, keyfiyyətinə və təsvirinə görə müqavilənin tələblərinə uyğun olan və müqavilə ilə tələb olunan qaydada taralanmış və qablaşdırılmış malları göndərməlidir.

(2) Tərəflərin digər qaydada razılaşdıqları hallar istisna olmaqla, mallar aşağıdakı hallarda müqaviləyə uyğun hesab olunmur:

(a) mallar eyni təsvirli malların adətən istifadə olunduğu məqsədlərə yararlı olmadıqda;

(b) mövcud şəraitdən satıcının səriştəsinə və mülahizələrinə alıcının etibar etmədiyinin və ya etibar etməsinin ağlabatan olmadığının göründüyü hallar istisna olmaqla, mallar müqavilənin bağlanıldığı zaman satıcının birbaşa və ya dolayı yolla məlumatlandırıldığı konkret məqsədə yararlı olmadıqda;

(c) mallar satıcı tərəfindən nümunə və ya model qismində alıcıya təqdim edilmiş malların keyfiyyətinə malik olmadıqda;

(d) mallar belə mallar üçün adi olan qaydada, belə qayda olmadıqda isə həmin malların saxlanması və qorunması üçün lazım olan qaydada taralanmadıqda və ya qablaşdırılmadıqda.

(3) Müqavilənin bağlanılması zamanı alıcı malların belə uyğunsuzluğunu bilirdisə və ya bilməyə bilməzdisə, satıcı əvvəlki bəndin (a)-(d) yarımbəndləri əsasında istənilən uyğunsuzluğa görə məsuliyyət daşımır.

**Maddə 36**

(1) Satıcı riskin alıcıya keçdiyi anda mövcud olan istənilən uyğunsuzluğa görə, hətta bu uyğunsuzluq yalnız bu andan sonra aşkar olsa belə, müqaviləyə və bu Konvensiyaya görə məsuliyyət daşıyır.

(2) Satıcı həmçinin, əvvəlki bənddə göstərilən andan sonra yaranan və müəyyən bir müddət ərzində malların adi məqsədlər və ya hər hansı konkret məqsəd üçün yararlı qalacağına və ya şərtləşdirilmiş keyfiyyəti və xüsusiyyəti saxlayacağına dair istənilən zəmanətin pozulması da daxil olmaqla, satıcı tərəfindən istənilən öhdəliyin pozulmasının nəticəsi olan istənilən uyğunsuzluğa görə məsuliyyət daşıyır.

**Maddə 37**

Satıcı malları göndərmə tarixindən əvvəl göndərdikdə, satıcı bu tarixədək çatışmayan hissəni göndərə və ya göndərilmiş malların miqdarında istənilən çatışmazlığı aradan qaldıra

və ya göndərilmiş uyğun olmayan malların əvəzinə malları göndərə və ya göndərilmiş mallarda istənilən uyğunsuzluğu aradan qaldıra bilər, bir şərtlə ki, bu hüququn həyata keçirilməsi alıcıya ağlabatan olmayan narahatçılıq və ya ağlabatan olmayan xərclər yaratmasın. Bununla belə, alıcı bu Konvensiyaya uyğun olaraq dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququnu özündə saxlayır.

**Maddə 38**

(1) Alıcı mövcud şərtlər çərçivəsində təcrübədə mümkün olan qısa müddətdə mallara baxış keçirməli və ya onlara baxışın keçirilməsini təmin etməlidir.

(2) Müqavilə malların daşınmasını nəzərdə tutursa, baxış malların təyinat yerinə gəlməsinədək təxirə salına bilər.

(3) Malların təyinat yeri onlar yolda olarkən dəyişdirildikdə və ya mallar alıcı tərəfindən yenidən göndərildikdə və bu zaman alıcı mallara baxış keçirmək üçün ağlabatan imkana malik olmadıqda, satıcı isə müqavilənin bağlanılması zamanı belə dəyişikliyin və ya belə yenidən göndərmənin mümkünlüyünü bilirdisə və ya bilməli idisə, baxışın keçirilməsi malların yeni təyinat yerinə çatdırılmasınadək təxirə salına bilər.

**Maddə 39**

(1) Alıcı malların uyğunsuzluğunun xarakteri barədə onun alıcı tərəfindən aşkar edilməsindən və ya aşkar edilməli olmasından sonrakı ağlabatan müddətdə satıcıya bildiriş vermədikdə, alıcı malların uyğunsuzluğuna istinad etmək hüququnu itirir.

(2) İstənilən halda, alıcı uyğunsuzluq haqqında bildirişi malların faktiki olaraq ona təhvil verilməsi tarixindən başlayaraq iki il müddətindən gec olmayaraq satıcıya vermədikdə, alıcı həmin uyğunsuzluğa istinad etmək hüququnu itirir, bir şərtlə ki, bu müddət müqavilədə razılaşdırılmış zəmanət müddəti ilə ziddiyyət təşkil etməsin.

**Maddə 40**

Malların uyğunsuzluğu satıcının bildiyi və ya bilməli olduğu və alıcıya bildirmədiyi faktlarla əlaqədar olduqda, satıcının 38-ci və 39-cu maddələrin müddəalarına istinad etmək hüququ yoxdur.

**Maddə 41**

Alıcının üçüncü şəxslərin istənilən hüquq və tələbləri ilə yüklü olan malları qəbul etməyə razı olduğu hallar istisna olmaqla, satıcı belə hüquq və tələblər ilə yüklü olmayan malları göndərməlidir. Bununla belə, belə hüquq və ya tələblər sənaye mülkiyyəti və ya digər əqli mülkiyyətə əsaslanırsa, satıcının öhdəliyi 42-ci maddə ilə tənzimlənir.

**Maddə 42**

(1) Satıcı müqavilənin bağlanıldığı anda bildiyi və ya bilməli olduğu sənaye mülkiyyətinə və ya digər əqli mülkiyyətə əsaslanan üçüncü şəxslərin istənilən hüquq və ya tələbləri ilə yüklü olmayan malları göndərməlidir, bir şərtlə ki, belə hüquq və ya tələblər aşağıdakılara əsasən sənaye mülkiyyəti və ya digər əqli mülkiyyətə əsaslansın:

(a) malların yenidən satılacağı və ya digər qaydada istifadə olunacağı dövlətin qanununa əsasən, əgər tərəflər müqavilənin bağlanılması anında malların həmin dövlətdə yenidən satılacağı və ya digər qaydada istifadə olunacağını güman edirdilərsə; və ya

(b) istənilən digər halda, alıcının fəaliyyət yerinin yerləşdiyi ölkənin qanununa əsasən.

(2) Satıcının əvvəlki bənddə nəzərdə tutulmuş öhdəliyi aşağıdakı hallara şamil edilmir:

(a) müqavilənin bağlanıldığı an alıcı həmin hüquq və ya tələblər barədə bilirdisə və ya bilməyə bilməzdisə;

(b) belə hüquq və ya tələblər satıcının təqdim etdiyi texniki çertyoj, layihə, düstur və ya digər belə xüsusiyyətlərə riayət edilməsinin nəticəsi olduqda.

**Maddə 43**

(1) Alıcı üçüncü şəxslərin hüquq və ya tələblərinin xarakterini qeyd edən bildirişi belə hüquq və ya tələbləri bildiyindən və ya bilməli olduğundan sonra ağlabatan müddətdə satıcıya vermədikdə 41-ci maddənin və ya 42-ci maddənin müddəalarına istinad etmək hüququnu itirir.

(2) Satıcı üçüncü şəxslərin hüquq və ya tələbləri və belə hüquq və ya tələblərin xarakteri barədə bildikdə, əvvəlki bəndin müddəalarına istinad edə bilməz.

**Maddə 44**

39-cu maddənin (1)-ci bəndinin və 43-cü maddənin (1)-ci bəndinin müddəalarına baxmayaraq, alıcının tələb olunan bildirişi verməməsinə dair ağlabatan üzrlü səbəbi olduqda, o, 50-ci maddəyə uyğun olaraq qiyməti aşağı sala və ya əldən çıxmış fayda istisna olmaqla, zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

## III bölmə
## SATICI TƏRƏFİNDƏN MÜQAVİLƏNİN POZULMASI HALINDA HÜQUQİ MÜDAFİƏ VASİTƏLƏRİ

**Maddə 45**

(1) Satıcı müqavilə və ya bu Konvensiya üzrə öhdəliklərindən hər hansı birini yerinə yetirmədikdə, alıcı aşağıdakıları edə bilər:

(a) 46-52-ci maddələrdə nəzərdə tutulan hüquqlarını həyata keçirə bilər;

(b) 74-77-ci maddələrdə nəzərdə tutulmuş qaydada zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

(2) Alıcının digər hüquqi müdafiə vasitələrindən istifadə hüququnu həyata keçirməsi onu zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan məhrum etmir.

(3) Alıcı müqavilənin pozulmasına görə hər hansı hüquqi müdafiə vasitəsinə müraciət etdikdə, məhkəmə və ya arbitraj tərəfindən satıcıya hər hansı möhlət verilə bilməz.

**Maddə 46**

(1) Alıcı satıcıdan öz öhdəliklərinin yerinə yetirilməsini tələb edə bilər, bir şərtlə ki, alıcı belə tələbə uyğun olmayan hüquqi müdafiə vasitəsinə müraciət etməmiş olsun.

(2) Mallar müqaviləyə uyğun olmadıqda, alıcı əvəzedici malların göndərilməsini yalnız bu uyğunsuzluq müqavilənin əhəmiyyətli pozuntusunu təşkil etdikdə və əvəzedici malların göndərilməsi barədə tələb 39-cu maddəyə uyğun olaraq verilmiş bildirişlə ya eyni vaxtda, ya da ondan sonra ağlabatan müddət ərzində verildikdə tələb edə bilər.

(3) Mallar müqaviləyə uyğun olmadıqda, alıcı satıcıdan bu uyğunsuzluğu təmir yolu ilə aradan qaldırmağı, bunun bütün şərtlər nəzərə alınmaqla ağlabatan olmadığı hallar istisna olmaqla, tələb edə bilər. Təmir tələbi 39-cu maddəyə uyğun olaraq verilmiş bildirişlə ya eyni vaxtda, ya da ondan sonra ağlabatan müddət ərzində verilməlidir.

**Maddə 47**

(1) Alıcı satıcının öz öhdəliklərini yerinə yetirməsi üçün əlavə ağlabatan davametmə müddəti müəyyən edə bilər.

(2) Alıcının satıcıdan bu qaydada müəyyən olunmuş müddətdə icranı həyata keçirməyəcəyi barədə bildiriş aldığı hallar istisna olmaqla, alıcı bu müddət ərzində müqavilənin pozulmasından hər hansı hüquqi müdafiə vasitələrinə müraciət edə bilməz. Bununla belə, alıcı icranın gecikdirilməsinə görə zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan məhrum olmur.

**Maddə 48**

(1) 49-cu maddəyə riayət edilməsi şərtilə satıcı hətta göndərmə üçün müəyyən olunmuş tarixdən sonra belə öhdəliklərinin icrasında istənilən çatışmazlığı öz hesabına aradan qaldıra bilər, bir şərtlə ki, o, bunu ağlabatan olmayan ləngimə olmadan və alıcının çəkdiyi xərclərin satıcı tərəfindən kompensasiya edilməsində alıcı üçün ağlabatan olmayan narahatlıq və ya qeyri-müəyyənlik yaratmadan edə bilsin. Bununla belə, alıcı bu Konvensiyaya uyğun olaraq zərərin əvəzinin ödənilməsini tələb etmək hüququnu saxlayır.

(2) Satıcı alıcıdan icranı qəbul edib-etməyəcəyini bildirməyi xahiş edərsə və alıcı bu xahişi ağlabatan müddət ərzində yerinə yetirmədikdə, satıcı sorğusunda qeyd olunan müddət ərzində icranı həyata keçirə bilər. Alıcı bu müddət ərzində öhdəliyin satıcı tərəfindən icrası ilə uyğun olmayan hər hansı hüquqi müdafiə vasitəsinə müraciət edə bilməz.

(3) Satıcının müəyyən müddətdə icranı həyata keçirəcəyi barədə bildirişinin alıcıdan əvvəlki bəndə uyğun olaraq öz qərarı haqqında bildirməsi xahişini əhatə etdiyi hesab olunur.

(4) Satıcının bu maddənin (2)-ci və ya (3)-cü bəndinə uyğun sorğusu və ya bildirişi alıcı tərəfindən alınanadək qüvvəyə malik olmur.

**Maddə 49**

(1) Alıcı aşağıdakı hallarda müqaviləyə xitam verilməsini bəyan edə bilər:

(a) satıcı tərəfindən müqavilə və ya bu Konvensiya üzrə öhdəliklərindən istənilən birinin yerinə yetirilməməsi müqavilənin əhəmiyyətli pozuntusunu təşkil etdikdə; və ya

(b) malların göndərilməməsi halında, satıcı alıcı tərəfindən 47-ci maddənin (1)-ci bəndinə uyğun olaraq müəyyən olunmuş əlavə müddətdə malları göndərmədikdə və ya belə qaydada müəyyən olunmuş müddətdə göndərməni həyata keçirməyəcəyini bəyan etdikdə.

(2) Bununla belə, satıcı malları göndərdiyi hallarda, alıcı müqaviləyə xitam verilməsini bəyan etmək hüququnu itirir, bir şərtlə ki, o, bu hüququ aşağıdakılara münasibətdə istifadə etməsin:

(a) göndərmədə ləngiməyə münasibətdə - göndərmənin həyata keçirildiyini bildikdən sonra ağlabatan müddət ərzində;

(b) göndərmədə ləngimə istisna olmaqla, istənilən digər pozuntuya münasibətdə - aşağıdakılardan sonra ağlabatan müddətdə:

(i) belə pozuntu barədə bildikdən və ya bilməli olduğu andan;

(ii) alıcı tərəfindən 47-ci maddənin (1)-ci bəndinə uyğun olaraq müəyyən olunmuş əlavə müddət bitdikdən və ya satıcı belə əlavə müddətdə öhdəliklərini həyata keçirməyəcəyini bəyan etdikdən; və ya

(iii) 48-ci maddənin (2)-ci bəndinə uyğun olaraq satıcı tərəfindən göstərilmiş istənilən əlavə müddət bitdikdən və ya alıcı icranı qəbul etməyəcəyini bəyan etdikdən.

**Maddə 50**

Mallar müqaviləyə uyğun olmadıqda və qiymətin ödənilib-ödənilməməsindən asılı olmayaraq, alıcı qiyməti faktiki olaraq göndərilən malların göndərilmə anında dəyəri ilə həmin anda müqaviləyə uyğun malların dəyəri arasındakı fərqə proporsional olaraq azalda bilər. Bununla belə, satıcı öhdəliklərinin icrasında çatışmazlıqları 37-ci maddəyə və ya 48-ci maddəyə uyğun olaraq aradan qaldırırsa və ya alıcı bu maddələrə uyğun olaraq satıcının öhdəliklərinin icrasını qəbul etməkdən imtina edirsə, alıcı qiyməti azalda bilməz.

**Maddə 51**

(1) Satıcı malların yalnız müəyyən hissəsini göndərdikdə və ya göndərilmiş malların yalnız müəyyən hissəsi müqaviləyə uyğun olduqda, 46-50-ci maddələr çatışmayan hissəyə və ya müqaviləyə uyğun olmayan hissəyə tətbiq olunur.

(2) Alıcı müqaviləyə bütövlükdə xitam verilməsini yalnız göndərmənin tamamilə və ya müqaviləyə uyğun həyata keçirilməməsi müqavilənin əhəmiyyətli pozuntusu olduqda bəyan edə bilər.

**Maddə 52**

(1) Satıcı malları müəyyən olunmuş tarixdən əvvəl göndərdikdə, alıcı göndərməni qəbul edə və ya onu qəbul etməkdən imtina edə bilər.

(2) Satıcı müqavilədə nəzərdə tutulandan çox miqdarda mallar göndərdikdə, alıcı göndərməni qəbul edə və ya artıq miqdarda göndərilmiş malın qəbulundan imtina edə bilər. Alıcı artıq miqdarda olan göndərməni tam və ya qismən qəbul edirsə, ona görə müqavilədə nəzərdə tutulan tariflə ödənişi həyata keçirməlidir.

*3-cü fəsil*

ALICININ ÖHDƏLİKLƏRİ

**Maddə 53**

Alıcı müqavilənin və bu Konvensiyanın tələblərinə uyğun olaraq malların qiymətini ödəməli və onların göndərilməsini qəbul etməlidir.

**I bölmə**

**QİYMƏTİN ÖDƏNİLMƏSİ**

**Maddə 54**

Alıcının qiymətin ödənilməsi öhdəliyinə müqaviləyə və ya qanunlara və qaydalara əsasən ödənişin həyata keçirilməsini mümkün etmək üçün tələb oluna bilən tədbirlərin görülməsi və rəsmiyyətə riayət olunması daxildir.

**Maddə 55**

Müqavilə hüquqi cəhətdən etibarlı formada bağlandıqda, lakin birbaşa və ya dolayı olaraq qiyməti müəyyən etmədikdə və ya onun müəyyən olunması qaydasını nəzərdə tutmadıqda, hər hansı digər qaydaya dair göstəriş olmadıqda, tərəflərin müqavilənin bağlanılması anında ticarətin müvafiq sahəsində müqayisə oluna bilən şəraitdə satılan belə mallara görə, adətən, alınan qiymətə istinadı nəzərdə tutduqları hesab edilir.

**Maddə 56**

Qiymət malların çəkisindən asılı olaraq müəyyən olunursa, şübhə halında qiymət xalis çəki üzrə müəyyən edilir.

**Maddə 57**

(1) Alıcı qiyməti hər hansı digər xüsusi yerdə ödəməli deyilsə, o, qiyməti satıcıya aşağıdakı yerlərdə ödəməlidir:

(a) satıcının fəaliyyət yerində; və ya

(b) ödəniş malların və ya sənədlərin təhvil verilməsi qarşılığında edilməli olduqda təhvil vermənin baş verdiyi yerdə.

(2) Satıcı müqavilənin bağlanılmasından sonra onun fəaliyyət yerinin dəyişməsi nəticəsində ödənişin həyata keçirilməsi ilə bağlı xərclərdə hər hansı artımı ödəməlidir.

**Maddə 58**

(1) Alıcı qiyməti hər hansı digər konkret müddətdə ödəməli deyilsə, o, qiyməti satıcının müqaviləyə və bu Konvensiyaya uyğun olaraq ya malları, ya da mallar üzərində sərəncamverici sənədləri alıcının sərəncamına verdiyi anda ödəməlidir. Satıcı malların və sənədlərin təhvil verilməsi üçün belə ödənişin həyata keçirilməsini şərt qoya bilər.

(2) Müqavilə malların daşınmasını nəzərdə tutduqda, satıcı malların və ya mallar üzərində sərəncamverici sənədlərin alıcıya qiymət ödənilmədən təhvil verilməyəcəyi şərtilə malları göndərə bilər.

(3) Alıcı onun mallara baxış keçirmək imkanı yarananadək, tərəflərin razılaşdığı göndərmə və ya ödəniş prosedurlarının belə imkanın yaranmasını gözləməklə bir araya sığmadığı hallar istisna olmaqla, malların qiymətini ödəməli deyildir.

**Maddə 59**

Satıcı tərəfindən hər hansı sorğunun edilməsi və ya rəsmiyyətin yerinə yetirilməsi zərurəti olmadan, alıcı müqavilə və ya bu Konvensiya ilə müəyyən olunmuş və yaxud müəyyən oluna bilən tarixdə qiyməti ödəməlidir.

## II bölmə
## GÖNDƏRMƏNİN QƏBULU

**Maddə 60**

Alıcının göndərməni qəbul etmək öhdəliyi aşağıdakılardan ibarətdir:

(a) satıcıya malların göndərilməsini həyata keçirmək imkanını yaratmaq üçün alıcıdan ağlabatan şəkildə gözlənilə bilən bütün hərəkətlərin edilməsi; və

(b) malların təhvil alınması.

## III bölmə
## ALICI TƏRƏFİNDƏN MÜQAVİLƏNİN POZULMASI HALINDA HÜQUQİ MÜDAFİƏ VASİTƏLƏRİ

**Maddə 61**

(1) Alıcı müqavilə və ya bu Konvensiya üzrə öhdəliklərindən hər hansı birini yerinə yetirmədikdə, satıcı aşağıdakıları edə bilər:

(a) 62-65-ci maddələrdə nəzərdə tutulan hüquqlarını həyata keçirə bilər;

(b) 74-77-ci maddələrdə nəzərdə tutulmuş qaydada zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

(2) Satıcının digər hüquqi müdafiə vasitələrindən istifadə hüququnu həyata keçirməsi onu zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan məhrum etmir.

(3) Satıcı müqavilənin pozulmasına görə hər hansı hüquqi müdafiə vasitəsinə müraciət etdikdə, məhkəmə və ya arbitraj tərəfindən alıcıya hər hansı möhlət verilə bilməz.

**Maddə 62**

Satıcı alıcıdan qiymətin ödənilməsini, göndərmənin qəbulunu və ya digər öhdəliklərinin yerinə yetirilməsini tələb edə bilər, bir şərtlə ki, satıcı belə tələbə uyğun olmayan hüquqi müdafiə vasitəsinə müraciət etməmişdir.

**Maddə 63**

(1) Satıcı alıcının öz öhdəliklərini yerinə yetirməsi üçün əlavə ağlabatan davametmə müddəti müəyyən edə bilər.

(2) Satıcının alıcıdan bu qaydada müəyyən olunmuş müddət ərzində icranı həyata keçirməyəcəyi barədə bildiriş aldığı hallar istisna olmaqla, satıcı bu müddət ərzində müqavilənin pozulmasından hər hansı hüquqi müdafiə vasitələrinə müraciət edə bilməz.
Bununla belə, satıcı icranın gecikdirilməsinə görə zərərin əvəzinin ödənilməsini tələb etmək hüququndan məhrum olmur.

**Maddə 64**

(1) Satıcı aşağıdakı hallarda müqaviləyə xitam verilməsini bəyan edə bilər:

(a) alıcı tərəfindən müqavilə və ya bu Konvensiya üzrə öhdəliklərindən istənilən birinin yerinə yetirilməməsi müqavilənin əhəmiyyətli pozuntusunu təşkil etdikdə; və ya

(b) alıcı satıcı tərəfindən 63-cü maddənin (1)-ci bəndinə uyğun olaraq müəyyən olunmuş əlavə müddət ərzində qiyməti ödəmək və ya malların göndərilməsini qəbul etmək öhdəliyini yerinə yetirmədikdə və ya belə qaydada müəyyən olunmuş müddət ərzində bunu etməyəcəyini bəyan etdikdə.

(2) Bununla belə, alıcı qiyməti ödədiyi hallarda, satıcı müqaviləyə xitam verilməsini bəyan etmək hüququnu itirir, bir şərtlə ki, o bu hüququndan aşağıdakılara münasibətdə istifadə etməsin:

(a) alıcı tərəfindən icranın ləngiməsinə münasibətdə - satıcı baş tutmuş icra barədə öyrənməzdən əvvəl; və ya

(b) icrada ləngimə istisna olmaqla, istənilən digər pozuntuya münasibətdə - aşağıdakılardan sonra ağlabatan müddətdə:

(i) belə pozuntu barədə bildikdən və ya bilməli olduğundan; və ya

(ii) satıcı tərəfindən 63-cü maddənin (1)-ci bəndinə uyğun olaraq müəyyən olunmuş əlavə müddət bitdikdən və ya alıcı belə əlavə müddət ərzində öhdəliklərini həyata keçirməyəcəyini bəyan etdikdən.

**Maddə 65**

(1) Müqavilə əsasında alıcı malların forması, ölçüsü və ya digər xüsusiyyətlərini müəyyən etməlidirsə və o bu xüsusiyyətləri ya razılaşdırılmış tarixdə, yaxud satıcıdan sorğu aldıqdan sonra ağlabatan müddətdə tərtib etmirsə, satıcı malik ola biləcəyi istənilən digər hüquqa ziyan vurmadan özü alıcının ona məlum ola bilən tələblərinə uyğun olaraq bu xüsusiyyətləri tərtib edə bilər.

(2) Satıcı xüsusiyyətləri özü tərtib etdikdə, o, alıcını onun məzmunu barədə ətraflı formada məlumatlandırmalı və alıcının digər xüsusiyyətləri tərtib edə biləcəyi müəyyən müddət müəyyən etməlidir. Satıcıdan məlumat aldıqdan sonra alıcı belə qaydada müəyyən olunmuş müddət ərzində bunu etmədikdə, satıcı tərəfindən tərtib olunmuş xüsusiyyətlər məcburi olacaqdır.

*4-cü fəsil*

## RİSKİN KEÇMƏSİ

### Maddə 66

Riskin alıcıya keçməsindən sonra malların itirilməsi və ya zədələnməsi alıcını qiyməti ödəmək öhdəliyindən azad etmir, bir şərtlə ki, belə itirilmə və ya zədələnmə satıcının hərəkət və ya hərəkətsizliyi nəticəsində baş verməsin.

### Maddə 67

(1) Alğı-satqı müqaviləsi malların daşınmasını nəzərdə tutduqda və satıcı malları hər hansı xüsusi yerdə təhvil verməli deyilsə, risk malların alıcıya verilməsi üçün alğı-satqı müqaviləsinə uyğun olaraq birinci daşıyıcıya təhvil verildiyi anda alıcıya keçir. Satıcı malları hər hansı xüsusi yerdə daşıyıcıya təhvil verməlidirsə, malların həmin yerdə daşıyıcıya təhvil verilməsinə qədər risk alıcıya keçmir. Satıcının malların üzərində sərəncamvermə sənədlərini saxlamaq hüququnun olması faktı riskin keçməsinə təsir etmir.

(2) Bununla belə, mallar müqavilənin məqsədləri üçün markalanma yolu ilə, yük sənədləri vasitəsilə, alıcıya verilən bildirişlə və ya digər qaydada dəqiq eyniləşdirilməyənədək risk alıcıya keçmir.

### Maddə 68

Yolda olduğu vaxt satılmış mallara münasibətdə risk müqavilənin bağlandığı andan alıcıya keçir. Bununla belə, şərait bunu göstərdikdə, alıcı daşıma müqaviləsini təsdiq edən sənədləri təqdim edən daşıyıcıya malların verilməsi anından riski öz üzərinə götürür. Buna baxmayaraq, alğı-satqı müqaviləsinin bağlanması anında satıcı malların itirildiyini və ya zədələndiyini bilirdisə və ya bilməli idisə və bu barədə alıcıya məlumat verməmişdirsə, belə itirilmə və ya zədələnmə satıcının riskində olur.

### Maddə 69

(1) 67-ci və 68-ci maddələrin qüvvəsi altına düşməyən hallarda, risk, mallar alıcı tərəfindən təhvil alındıqda və ya o, bunu vaxtında etmirsə, malların alıcının sərəncamına verildiyi və onun müqaviləni pozaraq göndərməni qəbul etmədiyi andan alıcıya keçir.

(2) Bununla belə, alıcı malları satıcının fəaliyyət yerində deyil, hər hansı digər yerdə qəbul etməli olduqda, göndərmə vaxtının çatdığı və alıcının malların həmin yerdə onun sərəncamına verilməsi barədə məlumatlı olduğu andan risk keçir.

(3) Müqavilə hələ eyniləşdirilməmiş mallara aid olduqda, malların, onun bu müqavilənin məqsədləri üçün dəqiq eyniləşdirilməsinə qədər alıcının sərəncamına verilmədiyi hesab olunur.

### Maddə 70

Satıcı müqavilənin əhəmiyyətli pozuntusuna yol verdikdə, 67-ci, 68-ci və 69-cu maddələrin müddəaları alıcının belə pozuntularla əlaqədar malik olduğu hüquqi müdafiə vasitələrinə xələl gətirmir.

*5-ci fəsil*
SATICININ VƏ ALICININ ÖHDƏLİKLƏRİ ÜÇÜN ÜMUMİ MÜDDƏALAR

## I bölmə
## MÜQAVİLƏNİN ƏVVƏLCƏDƏN GÖRÜNƏN POZUNTUSU VƏ MALLARIN AYRI-AYRI PARTİYALARLA GÖNDƏRİLMƏSİ MÜQAVİLƏLƏRİ

### Maddə 71

(1) Tərəf öz öhdəliklərinin icrasını, müqavilənin bağlanılmasından sonra digər tərəfin öhdəliklərinin əhəmiyyətli hissəsini icra etməyəcəyi aşağıdakılar nəticəsində məlum olduqda dayandıra bilər:

(a) onun icranın həyata keçirilməsi qabiliyyətindəki və ya kredit (ödəmə) qabiliyyətindəki ciddi çatışmazlıq; yaxud

(b) onun müqavilənin icrasının hazırlanması və ya icrasının həyata keçirilməsi üzrə davranışları.

(2) Satıcı əvvəlki bənddə göstərilən əsasların aydın olmasından əvvəl malları göndərdikdə, o, malların alıcıya təhvil verilməsinə, alıcı ona malları əldə etmək hüququnu verən sənədə malik olsa belə, mane ola bilər. Bu bənd yalnız alıcı və satıcı arasında mallara olan hüquqa aiddir.

(3) İcranı dayandırmış tərəf, bunun malların göndərilməsindən əvvəl və ya sonra edilməsindən asılı olmayaraq, digər tərəfə dərhal dayandırma barədə bildiriş verməlidir və digər tərəf öz öhdəliklərinin icrasına kifayət qədər təminat verdikdə icranın həyata keçirilməsini davam etdirməlidir.

### Maddə 72

(1) Müqavilənin icrası üçün müəyyən olunmuş tarixdən əvvəl tərəflərdən birinin müqavilənin əhəmiyyətli pozuntusunu törədəcəyi aydın olduqda, digər tərəf müqaviləyə xitam verilməsini bəyan edə bilər.

(2) Vaxt imkan verdikdə, müqaviləyə xitam verməyi bəyan etmək niyyətində olan tərəf digər tərəfə öhdəliklərinin icrasında ona kifayət qədər təminatın təqdim edilməsi imkanını vermək üçün müəyyən bildiriş göndərməlidir.

(3) Digər tərəf öhdəliklərini icra etməyəcəyini bəyan etdikdə, əvvəlki bəndin müddəaları tətbiq olunmur.

### Maddə 73

(1) Müqavilə malların ayrı-ayn partiyalarla göndərilməsini nəzərdə tutduqda, tərəflərdən birinin istənilən partiyaya münasibətdə hər hansı öhdəliyini icra etməməsi bu partiyaya münasibətdə müqavilənin əhəmiyyətli pozulmasını təşkil edirsə, digər tərəf bu partiyaya münasibətdə müqaviləyə xitam verdiyini bəyan edə bilər.

(2) Tərəflərdən birinin istənilən partiyaya münasibətdə hər hansı öhdəliyini icra etməməsi digər tərəfə müqavilənin əhəmiyyətli pozuntusunun gələcək partiyalara münasibətdə baş verəcəyini hesab etmək üçün haqlı əsas verdikdə, o, gələcək partiyalar üçün müqaviləyə xitam verdiyini bəyan edə bilər, bir şərtlə ki, o bunu ağlabatan müddətdə etsin.

(3) Malların hər hansı göndərişinə münasibətdə müqaviləyə xitam verildiyini bəyan edən alıcı həyata keçirilmiş və ya həyata keçiriləcək göndərmələrə münasibətdə müqaviləyə xitam verildiyini, müqavilənin bağlanılması anında tərəflərin gözlədikləri məqsədlər üçün

göndərişlərdən onların qarşılıqlı əlaqəsi səbəbindən istifadə oluna bilinmədikdə bəyan edə bilər.

## II bölmə
## ZƏRƏR

### Maddə 74

Tərəflərdən biri tərəfindən müqavilənin pozulmasına görə zərər müqavilənin pozulması nəticəsində digər tərəfin çəkdiyi, əldən çıxmış fayda da daxil olmaqla, itkiyə bərabər olan məbləği təşkil edir. Belə zərər müqaviləni pozmuş tərəfin müqavilənin bağlanması anında, onun həmin zaman bildiyi və ya bilməli olduğu faktlar və hallar da nəzərə alınmaqla, müqavilənin pozulmasının mümkün nəticəsi kimi gördüyü və ya görməli olduğu itkidən yuxarı ola bilməz.

### Maddə 75

Müqaviləyə xitam verilmişdirsə və müəyyən formada və xitamdan sonra ağlabatan müddətdə alıcı əvəzinə mallar aldıqda və ya satıcı malları yenidən satdıqda, zərərin əvəzinin ödənilməsini tələb edən tərəf müqavilə qiyməti ilə əvəzinə bağlanılmış əqd üzrə qiymət arasında fərqi, həmçinin 74-cü maddə əsasında tələb oluna bilən istənilən əlavə zərəri tələb edə bilər.

### Maddə 76

(1) Müqaviləyə xitam verilmişdirsə və bu mallara cari qiymət mövcuddursa zərərin əvəzinin ödənilməsini tələb edən tərəf 75-ci maddənin əsasında alışı və ya yenidən satışı həyata keçirməyibsə, o, müqavilədə müəyyən olunan qiymətlə müqaviləyə xitam verilməsi anındakı cari qiymət arasındakı fərqi, həmçinin 74-cü maddə əsasında tələb oluna bilən istənilən əlavə zərəri tələb edə bilər. Bununla belə, zərərin əvəzinin ödənilməsini tələb edən tərəf malları təhvil aldıqdan sonra müqaviləyə xitam verdikdə müqaviləyə xitam verilməsi anındakı cari qiymətin əvəzinə belə təhvil alma anındakı cari qiymət tətbiq olunur.

(2) Əvvəlki bəndin məqsədləri üçün cari qiymət dedikdə, malların göndərilməsinin həyata keçirilməli olduğu yerdə üstünlük təşkil edən qiymət, belə yerdə cari qiymət mövcud olmadıqda isə ağlabatan əvəzedici yer qismində çıxış edən digər yerdəki, malların daşınması xərclərindəki fərqləri də nəzərə almaqla, qiymət başa düşülür.

### Maddə 77

Müqavilənin pozulmasına istinad edən tərəf əldən çıxmış fayda daxil olmaqla, müqavilənin pozulması nəticəsində yaranan itkinin azaldılması üçün mövcud şəraitdə müəyyən tədbirlər həyata keçirməlidir. O, belə tədbirlər həyata keçirmədikdə, müqaviləni pozan tərəf əvəzi ödənilməli zərərlərin itkilərin azaldılması mümkün olan məbləğdə azaldılmasını tələb edə bilər.

## III bölmə
## FAİZLƏR

### Maddə 78

Tərəf qiyməti və ya ödənilməli olan istənilən digər məbləği ödəyə bilmədikdə, digər tərəf 74-cü maddə əsasında tələb oluna bilən zərərin əvəzinin ödənilməsi barədə istənilən tələbə xələl yetirmədən gecikdirilmiş məbləğdən faiz almaq hüququna malikdir.

## IV bölmə
## İSTİSNALAR

### Maddə 79

(1) Tərəf öhdəliklərindən istənilən birinin həyata keçirilməməsinə görə o, buna nəzarətindən kənar maneənin səbəb olduğunu və bu maneənin müqavilənin bağlanılması zamanı hesaba alınmasını və ya bu maneə və ya onun nəticələrindən yan keçməyi və ya onları dəf etməyi ondan gözləməyin ağlabatan olmadığını sübut etdikdə, məsuliyyət daşımır.

(2) Tərəfin öhdəliyini icra etməməsi, onun tərəfindən bütün müqavilənin və ya onun hissəsinin icrasına cəlb olunan üçüncü şəxs tərəfindən icra edilməməsinin nəticəsində baş verərsə, bu tərəf yalnız aşağıdakı hallarda məsuliyyətdən azad edilir:

(a) o, əvvəlki bənd əsasında məsuliyyətdən azad olunduqda; və

(b) qeyd olunan bəndin müddəaları onun tərəfindən belə cəlb olunan şəxsə də tətbiq olunsaydı, həmin şəxs də məsuliyyətdən azad olunardısa.

(3) Bu maddədə nəzərdə tutulan məsuliyyətdən azad edilmə yalnız həmin maneənin mövcud olduğu dövrə şamil olunur.

(4) Öhdəliyini icra etməyən tərəf maneə və həmin maneənin onun icranın həyata keçirilməsi qabiliyyətinə təsiri barədə digər tərəfə bildiriş verməlidir. Bu bildiriş öhdəliyini icra etməyən şəxsin maneə barədə bildiyindən və ya bilməli olduğundan sonra ağlabatan müddətdə digər şəxs tərəfindən alınmadıqda öhdəliyini icra etməyən tərəf bu bildirişin alınmamasının nəticəsi olan zərərə görə məsuliyyət daşıyır.

(5) Bu maddənin heç bir müddəası, zərərin əvəzinin ödənilməsi tələbi istisna olmaqla, tərəflərdən hər birinin bu Konvensiya əsasında istənilən digər hüququnun həyata keçirilməsinə mane olmur.

### Maddə 80

Tərəf digər tərəfin öhdəliklərini icra etməməsinə, bu icra edilməmənin birinci tərəfin hərəkət və ya hərəkətsizliyi səbəbindən olduğu həcmdə istinad edə bilməz.

## V bölmə
## MÜQAVİLƏYƏ XİTAM VERİLMƏSİNİN NƏTİCƏLƏRİ

### Maddə 81

(1) Müqaviləyə xitam verilməsi zərərin əvəzinin ödənilməsini tələb etmək hüququnu saxlamaqla, hər iki tərəfi müqavilə üzrə öhdəliklərindən azad edir. Müqaviləyə xitam verilməsi müqavilənin ona xitam verilməsi halında mübahisələrin həlli qaydasına və ya tərəflərin hüquq və öhdəliklərinə aid olan müddəalarına təsir etmir.

(2) Müqaviləni tam və ya onun hissəsini icra etmiş tərəf digər tərəfdən birinci tərəfin müqavilə üzrə göndərdiyinin və ya ödədiyinin hamısının qaytarılmasını tələb edə bilər. Hər iki tərəf əldə olunmuşların qaytarılmasını həyata keçirməlidirsə, onlar bunu eyni zamanda etməlidirlər.

### Maddə 82

(1) Alıcı üçün malları əsasən aldığı vəziyyətdə qaytarmaq mümkün olmadıqda, o, müqaviləyə xitam verilməsini bəyan etmək və ya satıcıdan malların dəyişdirilməsini tələb etmək hüququnu itirir.

(2) Əvvəlki bənd aşağıdakı hallara tətbiq olunmur:

(a) alıcı üçün malların qaytarılmasının və ya malların əsasən alıcı tərəfindən alındığı vəziyyətdə qaytarılmasının mümkün olmaması onun hərəkət və ya hərəkətsizliyi səbəbindən baş vermədikdə;

(b) mallar və ya onun hissəsi 38-ci maddədə nəzərdə tutulan baxış nəticəsində yararsız vəziyyətə düşdükdə və ya korlandıqda; və ya

(c) mallar və ya onun hissəsi alıcının malların uyğunsuzluğunu aşkar etdiyi və ya aşkar etməli olduğu anadək adi ticarət dövriyyəsində satılıbsa və ya alıcı tərəfindən normal istifadə qaydasında istehlak olunubsa və ya transformasiya edilmişdirsə.

**Maddə 83**

Müqaviləyə xitam vermək və ya satıcıdan malların dəyişdirilməsini tələb etmək hüququnu 82-ci maddəyə uyğun olaraq itirmiş alıcı müqavilədə və ya bu Konvensiyada nəzərdə tutulmuş bütün hüquqi müdafiə vasitələrindən istifadə etmək hüququnu saxlayır.

**Maddə 84**

(1) Satıcı qiyməti qaytarmalıdırsa, o, həmçinin qiymətin ödənilməsi tarixindən başlayaraq ona görə faizləri də ödəməlidir.

(2) Alıcı aşağıdakı hallarda mallar və ya onun hissəsindən əldə etdiyi bütün gəliri satıcıya verməlidir:

(a) alıcı malları tam və ya onun hissəsini qaytarmalı olduqda; və ya

(b) alıcı üçün bütün malları və ya onun hissəsini qaytarmağın və ya onun tərəfindən malların əsasən əldə olunduğu vəziyyətdə bütün malları və ya onun hissəsini qaytarmağın mümkün olmamasına baxmayaraq, alıcı müqaviləyə xitam verilməsini bəyan etmişdirsə və ya satıcıdan malların dəyişdirilməsini tələb etmişdirsə.

## VI bölmə
## MALLARIN SAXLANMASI

**Maddə 85**

Alıcı göndərmənin qəbul edilməsində ləngiməyə yol verdikdə və ya qiymətin ödənilməsi və malların göndərilməsinin eyni vaxtda həyata keçirilməli olduğu hallarda, alıcı qiyməti ödəmirsə və satıcı mallara sahiblik edirsə və ya digər qaydada mallar üzərində sərəncam verilməsinə nəzarət edə bilirsə, satıcı müvafiq şəraitdə malların saxlanması üçün ağlabatan olan tədbirlər həyata keçirməlidir. Satıcı onun ağlabatan xərcləri alıcı tərəfindən kompensasiya edilənədək malları saxlaya bilər.

**Maddə 86**

(1) Alıcı malları almışdırsa və ondan imtina etmək üçün müqavilə və ya bu Konvensiya əsasında hər hansı hüququnu həyata keçirmək niyyətindədirsə, o, müvafiq şəraitdə malların saxlanması üçün ağlabatan olan tədbirlər həyata keçirməlidir. Alıcı onun ağlabatan xərcləri satıcı tərəfindən kompensasiya edilənədək malları saxlaya bilər.

(2) Alıcıya göndərilən mallar onun sərəncamına təyinat yerində verilmişdirsə və o, mallardan imtina etmək hüququnu həyata keçirirsə, alıcı satıcının adına mallar üzərində sahibliyi qəbul etməlidir, bir şərtlə ki, bu, qiymət ödənilmədən və ağlabatan olmayan narahatlıq və ya ağlabatan olmayan xərclər olmadan edilə bilsin. Satıcı və ya onun adına malların qəbul edilməsinə səlahiyyətli olan şəxs təyinat yerində olduğu halda bu müddəa

tətbiq olunmur. Alıcı bu bənd əsasında mallar üzərində sahibliyi qəbul edirsə, onun hüquq və öhdəlikləri əvvəlki bənd əsasında tənzimlənir.

**Maddə 87**

Malların saxlanması üçün tədbirlər görməli olan tərəf onu digər tərəfin hesabına üçüncü şəxsin anbarına saxlanca verə bilər, bir şərtlə ki, bununla bağlı xərclər ağlabatan olmayan olmasın.

**Maddə 88**

(1) 85-ci və ya 86-cı maddəyə uyğun olaraq malları saxlamalı olan tərəf, digər tərəf mallar üzərində sahibliyin qəbul edilməsində və ya onun geri qəbul edilməsində və ya qiymətin və ya saxlanma xərclərinin ödənilməsində ağlabatan olmayan ləngiməyə yol verdikdə, malları istənilən uyğun qaydada sata bilər, bir şərtlə ki, digər tərəfə malların satılması niyyəti barədə ağlabatan bildiriş verilmiş olsun.

(2) Mal tez xarab olandırsa və ya onun saxlanması ağlabatan olmayan xərclərin yaranmasına səbəb olarsa, 85-ci və ya 86-cı maddəyə uyğun olaraq malı saxlamalı olan tərəf onun satılması üçün ağlabatan tədbirlər görməlidir. O, imkan daxilində, digər tərəfə satışın həyata keçirilməsi niyyəti barədə bildiriş verməlidir.

(3) Malları satan tərəf malların saxlanması və satılması üzrə ağlabatan xərclərə bərabər məbləği malların satışından əldə olunmuş gəlirdən özündə saxlamaq hüququna malikdir. Qalan hissəni digər tərəfə verməlidir.

## IV hissə
## YEKUN MÜDDƏALAR

**Maddə 89**

Birləşmiş Millətlər Təşkilatının Baş katibi bu Konvensiyanın depozitarisi təyin olunur.

**Maddə 90**

Bu Konvensiya artıq bağlanılmış və ya bağlana bilən, bu Konvensiyanın tənzimetmə predmeti olan məsələlər üzrə müddəaları əhatə edən istənilən beynəlxalq müqavilənin qüvvəsindən üstün qüvvəyə malik deyil, bir şərtlə ki, tərəflər belə müqavilələrin iştirakçısı olan dövlətlərdə öz fəaliyyət yerlərinə malikdirlər.

**Maddə 91**

(1) Bu Konvensiya Birləşmiş Millətlər Təşkilatının Malların beynəlxalq alğı-satqısı üzrə müqavilələrə dair Konfransının yekun iclasında imzalanma üçün açıqdır və o, 1981-ci il 30 sentyabr tarixinədək Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının Baş Qərargahında bütün dövlətlər tərəfindən imzalanması üçün açıq qalacaqdır.

(2) Bu Konvensiya onu imzalayan dövlətlər tərəfindən ratifikasiya, qəbul və ya təsdiq edilməlidir.

(3) Bu Konvensiya onun imzalanmaq üçün açıldığı tarixdən onu imzalamayan bütün dövlətlərin qoşulması üçün açıqdır.

(4) Ratifikasiya, qəbul, təsdiq və qoşulma sənədləri Birləşmiş Millətlər Təşkilatının Baş katibinə saxlanca verilir.

**Maddə 92**

(1) Razılığa gələn Dövlət imzalama, ratifikasiya, qəbul, təsdiq və ya qoşulma zamanı bu Konvensiyanın II hissəsinin onun üçün məcburi olmamasını və ya bu Konvensiyanın III hissəsinin onun üçün məcburi olmamasını bəyan edə bilər.

(2) Əvvəlki bəndə uyğun olaraq, bu Konvensiyanın II hissəsinə və ya III hissəsinə münasibətdə bəyanat vermiş Razılığa gələn Dövlət Konvensiyanın bu bəyanatın şamil olunduğu hissəsi ilə tənzimlənən məsələlərə münasibətdə bu Konvensiyanın (1)-ci maddəsinin (1)-ci bəndinə görə Razılığa gələn Dövlət hesab olunmur.

**Maddə 93**

(1) Razılığa gələn Dövlət konstitusiyasına uyğun olaraq, bu Konvensiyanın tənzimetmə predmeti olan məsələlər üzrə müxtəlif hüquq sistemlərinin tətbiq olunduğu iki və ya daha çox ərazi vahidlərinə malikdirsə, o, imzalama, ratifikasiya, qəbul, təsdiq və ya qoşulma anında bu Konvensiyanın onun bütün ərazi vahidlərinə, onlardan yalnız birinə və ya bir neçəsinə tətbiq olunduğunu bəyan edə bilər və öz bəyanatını istənilən vaxt digər bəyanatın təqdim edilməsi yolu ilə dəyişdirə bilər.

(2) Bu bəyanatlar depozitariyə bildirilməli və bu Konvensiyanın tətbiq olunduğu ərazi vahidlərini aşkar şəkildə qeyd etməlidir.

(3) Bu maddəyə uyğun olaraq verilmiş bəyanata görə bu Konvensiya Razılığa gələn Dövlətin bütün ərazi vahidlərinə deyil, bir və ya bir neçə ərazi vahidlərinə tətbiq olunursa və tərəfin fəaliyyət yeri bu dövlətdə yerləşirsə, bu Konvensiyanın məqsədləri üçün fəaliyyət yerinin belə Razılığa gələn Dövlətdə yerləşmədiyi hesab olunur, bir şərtlə ki, fəaliyyət yeri bu Konvensiyanın tətbiq olunduğu ərazi vahidində yerləşmiş olmasın.

(4) Razılığa gələn Dövlət bu maddənin (1)-ci bəndinə uyğun olaraq bəyanat vermədikdə, Konvensiya həmin dövlətin bütün ərazi vahidlərinə tətbiq olunur.

**Maddə 94**

(1) Bu Konvensiya ilə tənzimlənən məsələlər üzrə eyni və ya bir-birinə çox oxşar hüquq normalarına malik olan iki və ya daha çox Razılığa gələn Dövlət tərəflərin fəaliyyət yerlərinin həmin dövlətlərdə yerləşdiyi hallarda istənilən vaxt Konvensiyanın alğı-satqı müqavilələrinə və ya onların bağlanılmasına tətbiq edilməməsini bəyan edə bilər. Belə bəyanatlar birgə və ya qarşılıqlı birtərəfli bəyanatlar vasitəsilə verilə bilər.

(2) Bu Konvensiya ilə tənzimlənən məsələlər üzrə bu Konvensiyanın iştirakçısı olmayan bir və ya bir neçə dövlətin hüquq normaları ilə eyni və ya bir-birinə çox oxşar hüquq normalarına malik olan Razılığa gələn Dövlət tərəflərin fəaliyyət yerlərinin bu dövlətlərdə yerləşdiyi hallarda istənilən vaxt Konvensiyanın alğı-satqı müqavilələrinə və ya onların bağlanılmasına tətbiq edilməməsini bəyan edə bilər.

(3) Əvvəlki bəndə uyğun olaraq barəsində bəyanat verilən dövlət sonradan Razılığa gələn Dövlət olduqda, verilmiş bəyanat bu Konvensiyanın yeni Razılığa gələn Dövlətə münasibətdə qüvvəyə minməsi tarixindən (1)-ci bəndə uyğun olaraq verilmiş bəyanat qüvvəsinə malik olur, bir şərtlə ki, yeni Razılığa gələn Dövlət belə bəyanata qoşulur və ya qarşılıqlı birtərəfli bəyanat verir.

**Maddə 95**

İstənilən dövlət öz ratifikasiya, qəbul, təsdiq və ya qoşulma sənədini saxlanca verərkən, bu Konvensiyanın 1-ci maddəsinin (1)-ci bəndinin (b) yarımbəndinin onun üçün məcburi olmadığını bəyan edə bilər.

**Maddə 96**

Qanunvericiliyi alğı-satqı müqavilələrinin yazılı formada bağlanılmasını və ya təsdiq edilməsini tələb edən Razılığa gələn Dövlət istənilən vaxt 12-ci maddəyə uyğun olaraq alğı-satqı müqaviləsinin bağlanılmasının, tərəflərin razılığı ilə onda dəyişiklik edilməsinin və ya ona xitam verilməsinin və ya hər hansı ofertanın, akseptin və ya niyyətin digər ifadəsinin yazılı deyil, istənilən formada edilməsinə icazə verən 11-ci maddənin, 29-cu maddənin və ya bu Konvensiyanın II hissəsinin istənilən müddəasının, hər hansı tərəfin fəaliyyət yeri həmin dövlətdə olduqda, tətbiq olunmaması barədə bəyanat verə bilər.

**Maddə 97**

(1) Bu Konvensiyaya uyğun olaraq imzalama zamanı verilən bəyanatlar ratifikasiya, qəbul və təsdiq zamanı təsdiq edilməlidir.

(2) Bəyanatlar və bəyanatların təsdiqi yazılı formada edilir və depozitariyə rəsmi qaydada bildirilir.

(3) Bəyanat bu Konvensiyanın müvafiq dövlətə münasibətdə qüvvəyə minməsi ilə eyni anda qüvvəyə minir. Bununla belə, belə qüvvəyə minmədən sonra depozitarinin barəsində rəsmi bildiriş aldığı bəyanat, onun depozitari tərəfindən alınması tarixindən altı ay keçdikdən sonra növbəti ayın birinci günündən qüvvəyə minir. 94-cü maddəyə uyğun olaraq verilmiş qarşılıqlı birtərəfli bəyanat sonuncu bəyanatın depozitari tərəfindən alınmasından altı ay keçdikdən sonra növbəti ayın birinci günü qüvvəyə minir.

(4) Bu Konvensiyaya uyğun olaraq bəyanat verən istənilən dövlət depozitarinin adına göndərilmiş yazılı formada rəsmi bildiriş vasitəsilə istənilən vaxt ondan imtina edə bilər. Belə imtina depozitari tərəfindən bildirişin alınması tarixindən altı ay keçdikdən sonra növbəti ayın birinci günü qüvvəyə minir.

(5) 94-cü maddəyə uyğun olaraq verilmiş bəyanatdan imtina, bu imtinanın qüvvəyə mindiyi tarixdən digər dövlət tərəfindən həmin maddəyə uyğun olaraq verilmiş istənilən qarşılıqlı bəyanatın qüvvəsinin dayandırılmasına gətirib çıxarır.

**Maddə 98**

Bu Konvensiyada birbaşa nəzərdə tutulan qeyd-şərtlərdən başqa digər qeyd-şərtlərə yol verilmir.

**Maddə 99**

(1) Bu Konvensiya bu maddənin (6)-cı bəndinin müddəalarına riayət edilməsi şərtilə 92-ci maddəyə uyğun olaraq verilmiş bəyanatı özündə ehtiva edən sənəd də daxil olmaqla, onuncu ratifikasiya, qəbul, təsdiq və ya qoşulma sənədinin saxlanca verilməsi tarixindən on iki ay keçdikdən sonra növbəti ayın birinci günü qüvvəyə minir.

(2) Dövlət onuncu ratifikasiya, qəbul, təsdiq və ya qoşulma sənədinin saxlanca verilməsindən sonra bu Konvensiyanı ratifikasiya, qəbul, təsdiq etdikdə və ya ona qoşulduqda, qəbul edilməmiş hissə istisna olmaqla, bu Konvensiya həmin dövlət üçün, bu maddənin (6)-cı bəndinin müddəalarına riayət edilməsi şərti ilə, onun ratifikasiya, qəbul, təsdiq və ya qoşulma sənədinin saxlanca verilməsi tarixindən on iki ay keçdikdən sonra növbəti ayın birinci günü qüvvəyə minir.

(3) Bu Konvensiyanı ratifikasiya, qəbul və təsdiq edən və ya ona qoşulan və 1964-cü ilin 1 iyul tarixində Haaqada bağlanılmış Malların beynəlxalq alğı-satqı müqavilələrinin bağlanılmasının vahid qanunu ilə əlaqədar Konvensiya (Müqavilələrin bağlanması haqqında 1964-cü il Haaqa Konvensiyası) və 1964-cü ilin 1 iyul tarixində Haaqada bağlanılmış

Malların beynəlxalq alğı-satqı müqavilələrinin vahid qanunu ilə əlaqədar Konvensiyadan (alğı-satqı haqqında 1964-cü il Haaqa Konvensiyası) birinin və ya onların hər ikisinin iştirakçısı olan dövlət şəraitdən asılı olaraq eyni zamanda, alğı-satqı haqqında 1964-cü il Haaqa Konvensiyası və Müqavilələrin bağlanılması haqqında 1964-cü il Haaqa Konvensiyasından birini və ya hər ikisini bu barədə Niderland hökumətinə məlumat verməklə denonsasiya edir.

(4) Alğı-satqı haqqında 1964-cü il Haaqa Konvensiyasının iştirakçısı olan, hazırkı Konvensiyanı ratifikasiya, qəbul, təsdiq edən və ya ona qoşulan və bu Konvensiyanın II hissəsinin onun üçün məcburi olmayacağı barədə 92-ci maddəyə uyğun olaraq bəyanat verən və ya vermiş dövlət ratifikasiya, qəbul, təsdiq və ya qoşulma zamanı alğı-satqı haqqında 1964-cü il Haaqa Konvensiyasını Niderland hökumətinə bildiriş verməklə denonsasiya edir.

(5) Müqavilələrin bağlanılması haqqında 1964-cü il Haaqa Konvensiyasının iştirakçısı olan, hazırkı Konvensiyanı ratifikasiya, qəbul, təsdiq edən və ya ona qoşulan və bu Konvensiyanın III hissəsinin onun üçün məcburi olmayacağı barədə 92-ci maddəyə uyğun olaraq bəyanat verən və ya vermiş dövlət ratifikasiya, qəbul, təsdiq və ya qoşulma zamanı Müqavilələrin bağlanılması haqqında 1964-cü il Haaqa Konvensiyasını Niderland hökumətinə bildiriş verməklə denonsasiya edir.

(6) Bu maddənin məqsədləri üçün Müqavilələrin bağlanılması haqqında 1964-cü il Haaqa Konvensiyasının və ya alğı-satqı haqqında 1964-cü il Haaqa Konvensiyasının iştirakçısı olan dövlətlərin bu Konvensiyanı ratifikasiya, qəbul, təsdiq etməsi və ya ona qoşulması, birinci iki Konvensiyaya münasibətdə bu dövlətlərdən tələb oluna bilən denonsasiyanın qüvvəyə minməsinədək qüvvəyə minmir. Bu Konvensiyanın depozitarisi 1964-cü il Konvensiyalarının depozitarisi olan Niderland hökuməti ilə bununla bağlı zəruri əlaqələndirmənin təmini üçün məsləhətləşmələr aparır.

**Maddə 100**

(1) Bu Konvensiya yalnız müqavilənin bağlanılması haqqında təklif 1-ci maddənin (1)-ci bəndinin (a) yarımbəndində qeyd olunan Razılığa gələn Dövlətlər və ya 1-ci maddənin (1)-ci bəndinin (b) yarımbəndində qeyd olunan Razılığa gələn Dövlət üçün bu Konvensiyanın qüvvəyə mindiyi gün və ya qüvvəyə minməsindən sonra verildiyi hallarda müqavilələrin bağlanılmasına tətbiq olunur.

(2) Bu Konvensiya yalnız 1-ci maddənin (1)-ci bəndinin (a) yarımbəndində qeyd olunan Razılığa gələn Dövlətlər və ya 1-ci maddənin (1)-ci bəndinin (b) yarımbəndində qeyd olunan Razılığa gələn Dövlət üçün onun qüvvəyə mindiyi gün və ya qüvvəyə minməsindən sonra bağlanılmış müqavilələrə tətbiq olunur.

**Maddə 101**

(1) Razılığa gələn Dövlət depozitariyə göndərilmiş rəsmi yazılı bildirişlə bu Konvensiyanı və ya bu Konvensiyanın II hissəsini və ya III hissəsini denonsasiya edə bilər.

(2) Denonsasiya depozitari tərəfindən bildirişin alınmasından on iki ay keçdikdən sonra növbəti ayın birinci günü qüvvəyə minir. Bildirişdə denonsasiyanın qüvvəyə minməsinin daha uzun müddəti göstərildikdə, denonsasiya depozitari tərəfindən bildirişin alınmasından həmin daha uzun müddət keçdikdən sonra qüvvəyə minir.

Vyanada on bir aprel min doqquz yüz səksəninci ildə ərəb, Çin, ingilis, fransız, rus və ispan dillərindəki mətnləri bərabər autentik olan bir nüsxədə bağlanılmışdır.

Bunun təsdiqi olaraq, öz hökumətləri tərəfindən lazımi qaydada səlahiyyətləndirilmiş aşağıda imza edən səlahiyyətli nümayəndələr bu Konvensiyanı imzaladılar.

## AZƏRBAYCAN RESPUBLİKASININ BƏYANATI

Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində (Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayonu) Konvensiyanın müddəalarının həyata keçirilməsinə həmin ərazilər işğaldan azad olunanadək və işğalın nəticələri tam aradan qaldırılanadək təminat vermək iqtidarında deyildir (Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinin sxematik xəritəsi əlavə olunur).